# "Koroğlu" ucalığı



*Bu ucalığa çatmaq üçün o, 30 il yol gedib. 30 il əzmlə, mətanətlə bu yolların eniş-yoxuşlarına, qəfil dönüşlərinə tab gətirmiş, sinə gərmişdi. Qəribədir ki, bu yolu salan da özü idi, bu yolun ilk yolçusu da.... Nə ondan əvvəl bu yol var idi, nə də bu yolu tutan bir kəs... Bəlkə belə bir yolun yolçusu olmaq heç kimin xəyalına da gəlmirdi, ya belə bir xəyala düşməyə heç cürət etmirdilər. Çünki bu yol da, onu gedən də ilahi bir qüdrətin nəzərində qərar tutmuşdu. Bu yol Azərbaycan professional musiqisinin, milli operamızın yolu, gedəni isə xalqımızın dahi oğlu bəstəkar Üzeyir bəy Hacıbəyov idi.*

...1937-ci il aprelin 30-da Bakıda Opera və Balet Teatrında ilk tamaşası göstərilən "Koroğlu" operasının əfsanəvi müvəffəqiyyətindən sonra bəzi mətbu orqanlarında öz məqalə və çıxışlarını dərc etdirən Üzeyir Hacıbəyov nədənsə tez-tez ilk operası "Leyli və Məcnun"u yada salır, paralellər aparır, milli operanın 30 illik tarixini vərəqləyirdi. "Leyli və Məcnun"dan "Koroğlu"ya qədər" adlı məqaləsində Üzeyir Hacıbəyov yazırdı:

"...Mən, opera ("Leyli və Məcnun") üzərində 1907-ci ildən işləməyə başlamışam... Vəzifəm Fizuli poemasının sözlərinə forma və məzmunca zəngin, rəngarəng muğamlardan musiqi seçmək, hadisələrin dramatik planını işləyib hazırlamaq idi. ..."Leyli və Məcnun" böyük müvəffəqiyyət qazandı. Zənnimcə, bu müvəffəqiyyət onunla izah edilir ki, artıq Azərbaycan xalqı öz səhnəsində Azərbaycan operasının yaranmasını gözləyirdi..."

Əslində bəstəkarın son cümlədəki etirafı böyük bir həqiqətin üstünə işıq salmış olur. XIX əsrin ikinci yarısından Azərbaycan ədəbiyyatında, mədəniyyətində müşahidə olunan intibah XX əsrin əvvəllərində yeni mərhələyə qədəm qoymuşdu. Musiqili teatrın yaranması arzusu da artıq bir çox ziyalılarımızı düşündürürdü. Azərbaycan maarifçiliyinin görkəmli nümayəndələrindən olan Həsən bəy Zərdabinin gənc müəllim Üzeyir Hacıbəyovla görüşdüyü zaman "el nəğmələri əsasında musiqili səhnə əsəri yaratmaq" tövsiyəsi heç də adi istək deyildi. Bu öz millətinin imzasını "imzalar içində" görmək istəyən, artıq yetişmiş, vətənpərvər, millətsevər ziyalı zümrəsinin arzularından birinin bəyanı idi.

Qafqazın digər şəhərlərində, xristian millətləri arasında belə arzuda bulunanlar olsa da hələ ki, "milli musiqili teatr" yaratmaq möcüzəsi onlara nəsib olmamışdı.

"Leyli və Məcnun"dan "Koroğlu"ya qədər həqiqətən böyük sənət yolu keçmişdi. Bəstəkar bu zaman kəsiyində "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşidbanu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915) kimi operalar, "Ər və arvad" (1909), "O olmasın, bu olsun" (1910), "Arşın mal alan" (1913) kimi operettalar yaratmış, milli musiqili teatrın repertuar bazasını xeyli zənginləşdirmişdi. Bu opera və operettaların hər gün Bakıda, teatrların səhnəsində göstərilməsinə, bəzi əsərlərin isə tərcümə olunaraq Qafqazın, Orta Asiyanın, İranın, Türkiyənin, Volqaboyu şəhərlərin teatrlarında təcəssüm tapmasına baxmayaraq, bəzi bədxahlar Üzeyir Hacıbəyovun bu uğurlarını asan bir şey hesab edir, ürəkbulandıran sözlərdən, qarayaxmalardan belə çəkinmirdilər. Bəstəkarın ilk operalarının şöhrəti dəllək Ağaəlidən tutmuş, Saşa Oqanezşviliyə qədər neçə-neçə hərdəmxəyalı "opera yazmaq mərəzi"nə mübtəla etmişdi. Lakin Üzeyir Hacıbəyov qazandığı uğurlarla kifayətlənməyərək hər yeni əsərində bəstəkar texnikasını mükəmməlləşdirir, milli operanın inkişafı yollarını düşünürdü. Əgər ilk opera olan "Leyli və Məcnun" da öz yaxın dostları və məsləkdaşları olan H.Ərəblinski, H.Sarabski, Ə.Ağdamski, H.Terequlov kimi milli opera sənətinin mücahidlərinə güvənirdisə, sonradan növbəti əsərlərini səhnəyə qoyarkən Bakıda fəaliyyət göstərən yəhudi xorunu, Şatkovskinin, Slavinskinin simfonik ansambıllarını da bu işə cəlb edirdi. Azərbaycanlı qadınların opera səhnəsinə çıxmadığına görə digər





millətlərin qadınlardan xanım Yermakovanı, Olenskaya bacılarını milli operalarda sınayırdı.

Milli operanın uğurları addım-addım artıqca Üzeyir Hacıbəyov daha böyük arzularla yaşayırdı. Moskvada, Peterburqda təhsil alarkən, getdiyi konsertlərin, gördüyü operaların təsiri ilə Azərbaycan operasına "simfoniya üslubu" gətirmək, "mürəkkəb" formalar" yaratmaq istəyi güclənirdi. Azərbaycanda musiqi təhsili sahəsində irəliləyişlər, savadlı kadrların artması, teatrların milliləşməsi bəstəkarın arzularına qanad verən amillərdən idi.

Bununla belə, ötən əsrin əvvəllərində ifrat bolşevizmin mədəniyyət sahəsində meydana çıxmış nümayəndələrinin milli operaya münasibətləri heç də ürək açan deyildi. "Doloy tar", "Doloy papaq" deyənlər opera və operettalarımıza qarşı da çox kəskin tənqidi mövqe tutaraq, Üzeyir Hacıbəyovun əsərlərini "burjua əxlaqını idealizə etməkdə" təqsirləndirir, onların sənətkarlıq baxımından qeyri-peşəkar, zəif, qüsurlu olmasını vurğulayırdılar.

20-30-cu illərdə Koroğlu artıq mədəni həyatımızda tez-tez gündəmə gələn mövzulardan idi. Ədəbiyyatşünas alimlər, folklorçular "Koroğlu" dastanına müraciət edir, dastan yazıya alınıb nəşr edilirdi. Həvəskar dramaturq Heydər İsmayılov isə bu mövzuda səhnə əsəri də yazmışdı. Məhz bu əsər Üzeyir Hacıbəyovu cəlb etmiş, M.S.Ordubadini də bu işə qoşmaqla "Koroğlu" operasının librettosunu işləməyə başlamışdılar. Adətən bütün əsərlərini qısa zaman ərzində yazıb başa vuran Ü.Hacıbəyov "Koroğlu" operası üzərində beş il çalışmışdır. Lakin bu beş ilin hər günü, hər saatı bəstəkarın coşğun ilhamı, gərgin əməyi, yaradıcı axtarışları ilə zəngin olmuşdur. "Koroğlu" operası təkcə melodik dili, orkestr çaları, forma bitkinliyi, fikrin məntiqli inkişafı və başqa musiqi komponentləri ilə deyil, bütün əsərin ümumilikdə yeni bir nəzəriyyəyə əsaslanması ilə fərqlənir. Bəstəkarın uzun illər üzərində çalışdığı Azərbaycan musiqişünaslığının şah əsəri, fundamental elmi monoqrafiyası olan "Azərbaycan xalq musiqisinin əsasları" da artıq yekun mərhələsinə yaxınlaşırdı. Təsadüfi deyildir ki, bu kitabda əxz olunan bir çox elmi müddəalar "Koroğlu" operasında əyani olaraq öz bədii əksini tapmışdır. Operanın yazılma müddəti bütün mədəni ictimaiyyətin şirin intizarına səbəb olmuşdu. Bizə məlum xatirələrdən bəlli olur ki, Üzeyir bəyi sevənlər, onun sənət dostları, tələbələri bu operanı nə zaman səhnədə görəcəyi günləri həsrətlə gözləyirlərmiş. Hətta premyera ərəfəsində bəzi məşqləri görüb-eşidənlər xüsusi həyəcanla, şadlıqla öz təəssüratlarını dostları ilə bölüşürmüşlər.

Nəhayət, o gün yetişdi: 1937-ci ilin 30 apreli... Müasirlərinin dili ilə desək o gün Azərbaycan incəsənətinin əsl bayramı idi. Tamaşaya bilet tapmaq mümkün deyildi. Bakının bütün musiqisevərləri dəstə-dəstə Opera Teatrına axışırdı.

"Koroğlu" operasının ilk dirijoru müəllifin özü oldu. Rejissor İsmayıl Hidayətzadə, rəssam Rüstəm Mustafayev, rejissor köməkçisi Şəmsi Bədəlbəyli, xormeystr Y.A.Qrossman idi. Baş rollarda Koroğlu obrazının qüdrətli yaradıcısı Bülbül, Məmmədtağı Bağırov (Həsən xan), Gülarə İskəndərova (Nigar), Qulam İskəndərov (təlxək), Böyükağa Mustafayev (İbrahim xan) və başqaları çıxış edirdilər. Operanın səhnə tərtibatı, rəqslərin quruluşu, xorun möhtəşəm ifası uzun illər xatirələrdə premyeranın şirin, ecazkar anlarını yaşatmışdır.

Üzeyir Hacıbəyovun illərlə arzularında yaşatdığı an yetişmişdi. 30 il Azərbaycan opera sənətinin inkişafı naminə çəkdiyi zəhmət öz bəhrəsini vermişdi. Opera səhnəsinin yeni zirvəsi fəth olunmuşdur. Operanın gözəl ecazkar musiqisinə, professional ifasına, bitkin tərtibatına valeh olanlar bəstəkarın ünvanına olduqca ürəkaçan, məmnunluq doğuran təriflər deyir, təşbehlər işlədirdilər. O illərin mətbuat səhifələri bu opera haqqında xeyli xoş sözləri və yazılanları özündə əks etdirir. Ancaq Üzeyir bəyin cavanlıq dostu, məsləkdaşı, ilk operası "Leyli və Məcnun"un premyerasından ömrünün sonuna qədər milli operamızdan ayrılmayan tarzən Qurban Pirimov öz dostuna demişdi: "Üzeyir bəy, "Koroğlu"nu yazarkən sanki Allahdan sənə peyğəmbər vəhyləri gəlibmiş... Ustad sənətkarın qəlbindən qopan bu saf, səmimi sözlərdə dərin hikmət də vardır. "Koroğlu" operasında musiqilərin qeyri-adi gözəlliyi, ecazkar təsir qüvvəsi, tamlığı artıq müəllifin zəhmətinin, istedadının böyüklüyü ilə ölçüyə gəlmir. Doğrudan da, bu əsər yazılarkən ilahi bir qüdrətin bəstəkarın qəlbində qərar tutmasına inanmaq istəyirsən. Operanın uvertürası, Koroğlunun, Nigarın ariyaları, rəqslər, Çənlibel xoru sona qədər təhlilə ram olmayan, dərk edilməyən sənət möcüzəsi, bir sirri-xudadır. Üzeyir Hacıbəyovun ev muzeyin-

